ədalət.- 2020.- 20 avqust.- S.4.

# BİR HEKAYƏNİN TALEYİ



*Asif Rüstəmli*

**C.Cabbarlının 90 illiyi ərəfəsində ədibin arxivinə tez-tez baş çəkirdim. Ziyarətlərimdən birində onun 8 vərəqdən ibarət ərəb qrafikalı əlyazmasına rast gəldim. İri-həcmli mətnə sərlövhə qoyulmasa da, səhifələrdən birində karandaşla çəpəki "Sifarişlə" sözü yazılmışdı. Maraq mənə üstün gəldi və bu sözdən çəkinməyərək mətni oxumağa başladım. Satirik ruhda yazılmış bir hekayə idi. Sonda tarix yazılmasa da, bir cümlədən məlum olurdu ki, 1930-cu ildə Azərbaycanda inqilabın (istilanın-A.R.) 10 illiyi ərəfəsində yazılıb. Hadisələr əsasən Bakının Şura və Böyük Səlyan küçələrində cərəyan edirdi. Əsərdə sosial-məişət şəraitinin dözülməzliyi, ictimai təşkilatların, təsərrüfat müəssisələrinin süründürməçiliyi, idarəetmə mexanizmində ciddi qüsurlar, milis, təcili yardım sistemində olan bürokratik əngəllər çox sərt tənqid edilmişdir. Müəllif çamura batmış bu küçələrin fonunda mövcud quruluşu, mühiti qılınclayırdı. Hətta əsərin qəhrəmanı Sancaq bəy (C.Cabbarlının gizli imzalarından biridir -A.R.) əsəbiləşərək deyir: "Keçmişlər kimi yaşamaq yaxşı olsa idi, onda bu Nikolayı yıxmağa, yeni bir inqilab düzəltməyə nə ehtiyac vardı?"**

Bu cümlə C.Cabbarlının sovet rejiminə, sosialist inqilabına ilk ən güclü etirazı idi

Əsərin qəhrəmanı yeni-yeni macəralara rast gəldikcə və lığa, çamura çevrilmiş küçələrdən keçdikcə əsas məqsədi papağını qorumaq olur.

Onu pencəyin qoltuq cibinə dürtsə də əsərin qəhrəmanı nəticədə papağını itirir

C.Cabbarlının dərin məzmuna və örtülü mənaya malik bu hekayəsinin başlığı olmasa da, onu "Papaq" adlandırdım.

Yığcam müqəddimə yazaraq dövrün ən populyar bir jurnalına təqdim etdim. Xeyli müddətdən sonra özlərini demokratik düşüncə daşıyıcıları adlandıranlar absurd bəhanələrlə yazını özümə qaytardılar və çapının mümkünsüzlüyünü bildirdilər. Doğrusu hekayənin ərəb qrafikasından transfoneliterasiya



olunmasına xeyli vaxt sərf etmişdim

Növbəti açdığım qapı "Ədəbiyyat və incəsənət" qəzetinin redaksiyası oldu.

Qəzetin baş redaktoru, xalq yazıçısı Sabir Əhmədli məni 1990-cı ilin o ağır, çətin günlərində "xoş gəldin"lə qarşıladı. Söhbətimiz maraqlı oldu. Dedim ki, Sabir müəllim, C.Cabbarlının 90 illiyinə ədibin 60 ildi çapdan kənarda qalmış bir əsərini gətirmişəm. Bu əsər demək olar ki, Sizinlə yaşıddır. İstərdim ki, bu hekayəni diqqətlə oxuyub fikrinizi bildirəsiniz. Bu əsərdə mən C.Cabbarlının milliliyini, cəsarətini, həqiqətsevərliyini görürəm.

Sabir müəllim mənim C.Cabbarlı ilə bağlı söhbətlərimi maraqla dinlədi, təəccüblə qarşıladı, mütləq oxuyacağını dedi və bildirdi ki, sevimli ədibimizin hər sətri bizim üçün əzizdir.

Bir neçə gündən sonra Sabir müəllimə zəng edib fikrini soruşmaq istəyəndə o hekayənin qəzetin ən yaxın nömrəsinə daxil edildiyini bildirdi.

**C.Cabbarlının "Papaq" hekayəsi yazıldığı tarixdən 60 il sonra, 60 yaşlı Sabir Əhmədlinin xeyir-duası ilə "Ədəbiyyat və incəsənət" qəzetinin 7 dekabr 1990-cı il tarixli 48-ci sayında işıq üzü gördü. Qəzetin 1-ci səhifəsində "Cabbarlının tapılmış hekayəsi" adlı mənim ön sözüm verilmiş, hekayənin sonunda isə Sabir Əhmədli "Papaq" itməyib" adlı təəssüratını yazmışdır. Bu təəssürat 30 ildən sonra - bu gün də çox canlıdır və isti duyğularla cilalanıb. Xalq yazıçısı Sabir Əhmədlinin qanlı sovet rejimi dövründəki açıq, cəsarətli düşüncələri təqdirəlayiqdir və onun həmin yazısını həm də araşdırmalarım haqqında ilk dəyərləndirmə hesab edirəm.**